**AZƏRBAYCAN RESPUBLİKASI**
**BEYNƏLXALQ TƏHSİL MƏRKƏZİ**
**QAFQAZ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**CANTÜRK ABDULLAH TUNCER OĞLU**

# ÖZƏL TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KADR HAZIRLIĞI VƏ ONDAN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**İxtisas:** 5311.01-“Müəssisələrin təşkili və idarə olunması”

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFARATI**

**BAKI-2017**

Dissertasiya işi Qafqaz Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru,
prof. **Şahbaz M.Muradov**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru,
prof. **İrşad A.Kərimli**

İqtisad üzrə fəlsəfə doktoru,
dos. **Asif M.Mustafayev**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu
("Sənayenin inkişaf problemləri" şöbəsi)

**Dissertasiya işinin** müdafiəsi 13 iyun 2017-ci il tarixində saat $14^{00}$-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən B/FD.02.016 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir

**Ünvan:** AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 11 may 2017-ci il tarixdə göndərilmişdir.

**B/FD.02.016 Dissertasiya Şurasının**
**elmi katibi, dosent** **A.T.Əfəndiyeva**

## İŞİN ÜMUMİ XAREKTERİSTİKASI

**Mövzunun aktuallığı.** İqtisadiyyatın, sosial sferanın və digər sahələri əhatə edən münasibətərindəki çevik keyfiyyət dəyişiklikləri özlüyündə bu sahələrə xidmət edən sistemlərin daha da mütərəqqi, dinamik olmasını və inkişafını zəruri etmişdir. Qloballaşma deyilən bir ümumbəşər meyilin cəmiyyətin inkişafı istqamətində bütün sahələrə sirayət etməsi iqtisadiyyatın istehsal amillərinə dayanan inkişafına yenidən baxmağı, ora yeni elementlərin daxil olmasını labüd etmişdir. Belə bir şəraitdə cəmiyyət, dövlət və iqtisadiyyatın qarşılıqlı inkişafını təmin edən sistem olan təhsilin həm bilik vermək bacarığı, həm də istehsal amillərini zənginləşdirmək baxımından önəmi daha da artmışdır.

Hər bir ölkə özünün iqtisadi. mədəni və ictimai inkişafından asılı olmayaraq təhsilin mütərəqqi hala gəlməsi üçün çalışır və müxtəlif islahatlar keçirdir. Artıq dünya tələbatı təhsilin primitiv qaydalara və metodlara söykənməsini qəbul etmir, rəqabət məfhumunu da bu sistemin daxilinə salaraq sanki, qlobal xarakter vermişdir. Belə bir vəziyyətdə hər bir ölkə kimi Azərbaycanın  təhsil sistemi digər dünya ölkələri kimi dinamikliyə, çevikliyə və effektivliyə tam cavab verməli və ən azından bu elementləri “idxal” etməməlidir. Bu aspektdə hesab edirik ki, əsas vəzifələr bölgüsündə xüsusi məsuliyyət heç şübhəsiz ki, ölkənin ali təhsil sisteminin üzərinə düşür.

Respublikamız müstəqillik qazandığı gündən bəri müxtəlif dövrlərdə təhsil sistemində mərhələli islahatlar aparmış və müsbət nəticələr əldə edilmişdir. Lakin, təhsil sistemini iqtisadiyyata sıx bağlayan əsas meyarlar olan yüksək səviyyəli və rəqabəti kadr hazırlığı, insan kapitalının formalaşması məsələsi və bunun əsasında inkişaf edən bilik iqtisadiyyatı qarşılıqlı mexanizmlər baxımından fəaliyyəti tam təmin edilə bilinməmişdir. Bu meyarlar əldə rəhbər tutaraq hesab edirik ki, təhsil sisteminin xüsusi pilləsi olan ali təhsilin özəl bölməsi ümumi ölkənin iqtisadi, sosial və mədəni sahəsindəki inkişafına əlavə güc qaynağı kimi çıxış edə bilər. Bunun əsası şübhəsiz ki, qabaqcıl ölkələrin təcrübələrinə dayanmış və ölkəmizdə mövcud olan özəl təhsil müəssisələrinin ümumi kadr hazırlığında lazimi səviyyədə olmaması və mümkün potensialdan yetərsiz qalması artıq elmi-tədqiqat baxımından olduqca aktuallıq kəsb etməyə başlamışdır.

Özəl təhsil sistemində kadr hazırlığı sadəcə təhsil siteminin problemi deyildir. Burada həmçinin, bu istiqamətdə ictimaiyyətin,

dövlətin və təsərrüfat subyektlərinin birgə fəaliyyəti çərçivəsində fəaliyyəti olmalıdır ki, bunu da elmi əsaslarla etmək lazımdır. Belə bir problemin elmi əsas və mahiyyət kəsb etməsi şübhəsiz ki, mövzunun seçilməsində bizə güclü elmi əsaslar vermişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Şübhəsiz ki, təhsil sistemi iqtisadiyyat üçün xüsusi sahə hesab olunduğundan onun tədqiqi və araşdırlıması bu və ya digər dərəcədə dünya və respublika alimlərinin tədqiqatlarında mühüm yer tutmuşdur. Xarici tədqiqatçılara Armer M,Ahlers J, Borro R.J, Becker G, Chon E, Hill K, Helliüell J.F, Hojo M, Gürsoy A, Lau J.L, Nicolas B, Malveaux J, Балдин .В., Беляев В., Брандман Э.М., Галаган А.И., Ершова И.В., Иноземцев В., ИЛЬИНСКИЙ И.В., Панферова В.В., Маршавин Ю.Н Aydın İ, Baloğlu N, Baloğlu Z, Bilgeseven A, Engin A, Erdoğan İ, Gencel U, Gülcan M.G, Saffet B, Oktay F, və s. aid etmək olar.

Yerli tədqiqatçılara isə Abdullayeva R, Dünyamalıyeva Q.Ə, Fərəcov Ə.S, Həmidov H, Əhmədov İ, Əkbərova M.Q, İsmayılov V.İ, Muradov A.N, Muradv Ş.M, Musayev A, Məmmədov N. Mərdanov M, Rzayeva M.N, Sultanov A.N , Sultanov R.A. və başqalarını misal göstərmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi ölkə miqyasında həyata keçirilən kadr hazırlığının özəl təhsil sistemindəki yerini ön plana çəkərək onun keyfiyyətcə daha mütərəqqi mövqedə olmasını elmi əsaslarla təsbit etməkdən ibarətdir. Bu elmi əsaslara söykənən məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcılıqla yerinə yetirilmişdir:

-ümumən təhsilin sosial-iqtisadi əhəmiyyəti dəyişən və inkişaf edən cəmiyyətin təlabatları baxımından elmi-nəzəri prinsip və metodalogiya ilə əsaslandırılması;

-özəl təhsil sisteminin ümumən formalaşmasına meylinin göstərilməsi, beynəlxalq təcrübələrə əsaslanaraq onun müxtəlf sahələri üzrə fəaliyyət mexanizminin öyrənilməsi;

-xüsusən kadr hazırlığı prosesində özəl təhsil sisteminin əhəmiyyətinin əsaslandırılması və onun fərqli meyarlarla xarakterik xüsusiyyətlərinin göstərilməsi;

-respublikamızda aparılan təhsil islahatlarının nəticələrinin qiymətləndirilməsi;

-əmək bazarının peşə istiqamətləri üzrə işçi qüvvəsinə olan tələbin vəziyyətinin təhlil edilməsi;

-özəl təhsil sistemində kadr hazırlığının real iqtisadi göstəricilər əsasında dinamikanın verilməsi;

-özəl təhsilin maliyyələşdirilməsi mexanizmi çərçivəsində mümkün təkmilləşmə istiqamətlərinin elmi əsaslarla verilməsi;

-respublikanın timsalında özəl təhsildə kadr hazırlığının əmək bazarının tələblərinə uyğun yaxşılaşdırılması yollarının göstərilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Azərbaycan Respublikasının özəl təhsil sistemi, predmetini isə kadr hazırlığı prosesində özəl təhsil sistemində yaranan münasibətlər və bu münasibətlərin sosial-iqtisadi əsasları təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dünya və Azərbaycan iqtisadçı alim və mütəfəkkirlərin tədqiqatlarının nəticələri, ümumi iqtisadiyyat, təhsil sitemi üzrə beynəlxalq anlayış və kateqoriyalar, qanun və qanunverici aktların bu sahəyə tətbiqi xüsusiyyətləri təşkil edir. Araşdıra zamanı iqtisadi-statistik təhlil, məntiqi yanaşma, induksiya, deduksiya, qarşılıqlı müqayisə metodarı və sistemli yanaşma prinsipərindən geniş istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Azərbaycanda həyata keçirilən təhsil islahatları çərçivəsində qəbul edilmiş qanunverici aktlar, normativ-hüquqi sənədlər, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Məşğulluq İdarəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hesabatları, Azərbaycan Dövlət Statistika Komitəsinin göstəriciləri eləcə də beynəlxalq təşkilatların hesabatları təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- müasir dövr üçün təhsil sisteminin həm cəmiyyət, həm də iqtisadiyyatda baş verən keyfiyyət dəyişiklərinə uyğun sosial-iqtisadi əhəmiyyəti fərqli aspektlərdən elmi-nəzəri cəhətdən əsaslandırılmışdır;

- beynəlxalq təcrübəyə əsasən respublikada özəl təhsil sisteminin fəaliyyət mexanizmi dəyərləndirilmiş, ölkəmiz üçün kadr hazırlığı prosesində sosial-iqtisadi prioritet təşkil edən amillər seçilərək göstərilmişdir;

-özəl ali təhsil sistemində kadr hazırlığının xarakterik xüsusiyyətləri göstərilərək ümumi problemin həllində cəmiyyət və dövlət tərəfindən olan yanaşmalardakı çatışmazlıqlar fonunda alternativlər üzə çıxarılmışdır;

-özəl təhsilin maliyyələşməsi mexanizmində olan ənənəvi üsullara yeni sahə və meyarları əlavə edilmiş, dövrün tələbləri və şərtləri

daxilində kadr hazırlığındakı keyfiyyət tələbatını təmin edəcək prinsiplər qeyd edilmişdir;

-xüsusən əmək bazarı ilə özəl təhsil sisteminin qarşılıqlı fəaliyyəti mexanizmi göstəriləcək bazarın tələblərinə maksimum effektli cavab verə bilmək yolları elmi-təcrübi baxımından əsaslandırılmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə olunmuş nəticələr, eləcə də irəli sürülmüş təklif və tövsiyələr qloballaşmanın vüsət əldə aldığı bir zamanda respublikamızın təhsil sisteminin daha da təkmil halda olmasında, bu sistemlə əlaqədar olan münasibətlərin daha da yaxşılaşdırılmasında, həmçinin, ölkədə mövcud olan özəl ali təhsilin keyfiyyət meyarlarının qaldırılmasında istifadə edilə bilər. O cümlədən də əldə olunmuş elmi əsaslı nəticələr respublikanın əmək bazarının keyfiyyətli kadr hazırlığı tələbinə cavab verməyi bacaran özəl təhsil müəssisələrində keyfiyyətli idarəetmə, keyfiyyətli tədris proqramlarının təkmilləşməsində tətbiq edilə bilər.

Nəzərə almaq lazmdır ki, tədqiqat bilavasitə olraq ali təhsil sistemini əhatə etdiyindən onun ayrı-ayrı bölmələrinin nəticələri həmçinin, özəl ali təhsil müəssisələrinin maliyyə, kooperasiya və geniş əməkdaşlıq etmə proqramlarının daha da təkmilləşməsində istifadə edilə bilər. Struktur olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Məşğulluq İdarəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və bu sahə ilə əlaqədar qrumların ölkədə kadr hazırlığı çərçivəsində həyata keçirtdikləri tədbirlərdə tədqiqatın elmi-praktiki nəticələri öz əksini tapa bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, işdə irəli sürülmüş təklif və tövsiyyələr müxtəlif dövrlərdə ayrı-ayrı mövzularda keçirilən respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfranslarda məruzə edilmiş və çap olunmuşdur. Onu da qeyd edək ki, tədqiqatın nəticələri böyük nəzəri və praktiki əhəmiyyət kəsb etdiyindən onun təhsil müəssisələrinin tədrisi və ixtisasların seçilməsi üzrə vermiş olduğu təkliflər həm özəl, həm də dövlət ali təhsil ocaqlarında tədrisin keyfiyyətinin qaldırılması ilə nəticələnəcəkdir.

**İşin həcmi.** Dissertasiya işi 147 səhifədən ibarət olmaqla 12 cədvəli, 2 qrafiki və 4 diaqramı özündə birləşdirir. Dissertasiya işində 120 ədəbiyyatdan istifadə edilmişdir.

## MÜNDƏRİCAT

**GİRİŞ**

**I Fəsil. ÖZƏL TƏHSİL SİSTEMİNDƏ KADR HAZIRLIĞININ ELMİ-NƏZƏRİ ƏSASLARININ ÖYRƏNİLMƏSİ.**

1.1. Təhsilin sosial-iqtisadi əhəmiyyəti: elmi-nəzəri təhlil.

1.2. Dünya təcrübəsində təhsil sisteminin formalaşması və özəl təhsilin fəaliyyət mexanizminin öyrənilməsi.

1.3. Özəl təhsil sistemində kadr hazırlığının xarakterik xüsusiyyətləri.

**II Fəsil. ÖZƏL TƏHSİL SİSTEMİNDƏ KADR HAZIRLIĞI VƏ ONDAN İSTİFADƏ SAHƏSİNDƏ MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ.**

2.1. Azərbaycanın təhsil sistemində aparılan islahatlar və onun qiymətləndirilməsi.

2.2. Əmək bazarının peşə istiqamətləri üzrə iş qüvvəsinə tələbin mövcud vəziyyətinin qiymətləndirilməsi.

2.3. Özəl təhsil sistemində kadr hazırlığının dinamikası.

**III Fəsil. ÖZƏL TƏHSİL SİSTEMİNDƏ HAZIRLANAN KADR POTENSİALINDAN İSTİFADƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.**

3.1. Özəl təhsilin maliyyələşməsi mexanizmi və onun inkişafının təkmilləşdirilməsi istiqamətləri.

3.2 Özəl təhsil sistemində kadr hazırlığının əmək bazarının tələblərinə uyğun yaxşılaşdırılması yolları.

**Nəticə və təkliflər.**

**İstifadə edilmiş ədəbiyyat.**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı və problemin seçilməsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti müəyyən edilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

**Dissertasiyanın "Özəl təhsil sistemində kadr hazırlığının elmi-nəzəri əsalarının öyrənilməsi" adlı** I fəslində təhsilin sosial-iqtisadi əhəmiyyəti: elmi-nəzəri təhlil, dünya təcrübəsində təhsil sisteminin formalaşması və özəl təhsilin fəaliyyət mexanizminin öyrənilməsi və özəl təhsil sistemində kadr hazırlığının xarakterik xüsusiyyətləri məsələləri tədqiq edilmişdir.

**Bu fəslin** “Təhsilin sosial-iqtisadi əhəmiyyəti: elmi-nəzəri təhlil” adlı 1-ci yarım bölməsində qeyd olunur ki, təhsil olduqca mürəkkəb və onun hər dövr üçün mahiyyətinin zənginləşdiyi bir kateqoriyadır. Təhsil sadəcə olaraq bilik toplamaq deyil, həmçinin dövrün tələblərinə uyğun sosial təbəqənin və onun hər bir üzvünün formalaşması prosesidir. Qloballaşan dünyada təhsilin əsl məzmunu və mahiyyətini axtarmış olsaq ümumən ona verə biləcəyimiz tərifdə müəyyən çatışmazlıqlara yol verə bilərik. Belə ki, cəmiyyətin içərisində olduğu hər bir sistem və sistemin yaratmış olduğu mühütə uyğun təhsil məzmun daşıyır və daha da zənginləşir. Bu baxımdan təhsil, onun sosial-iqtisadi mahiyyəti, iqtisadiyyatların inkişafında onun rolu, iqtisadi insanın formalaşmasında yeri və ən nəhayət istehsal amillərindən olan əməyin mürəkkəbləşməsində onun mövqeyinin öyrənilməsi hesab edirik ki, müasir dövr üçün həlli vacib sayılan ən ümdə məsələlərdəndir.

Çünki, artıq böyük depressiyanın nəticələri bunu deməyə əsas verdi ki, iqtisadiyyat üçün yalnızca kortəbii məqsədlərə xidmət edən iqtisadi insan deyil, uzaqgörən, gələcəkdə baş verə bilənləri düzgün düşünə bilən, xüsusən də müəssisə daxili fəaliyyətin səmərəliliyini artıra biləcək istedadlı kadrlara ehtiyac vardır. Şübhəsiz ki, iqtisadi insanın və onun toplamış olduğu biliyin fonunda XX əsrə qədərki mütəfəkkirlərin böyük əksəriyyəti sahibkarı görürdülər. Ona görə də artıq menecment elminin geniş yayılması, təhsil sistemində buna uyğun sosial dəyişiklərin olması da şübhəsiz ki, iqtisadi insanın məzmununda müəyyən dəyişiklik etməyi tələb etmişdir.

Qeyd etmək lazımdır ki, təhsil amili iqtisadiyyatda insan amilini sistemli şəkildə salmağa nail olmuşdur. Belə ki, təhsilin zəruriliyi öncəliklə insanın cəmiyyət miqyasında kamil olmasına, sonra onun bir işçi qüvvəsi kimi ixtisaslı əməyə malik olmasında, daha sonra malik olduğu bilik və qabiliyyətə uyğun istehsal prosesini reallaşdırılmasında və nəhayət də yeni texnika və texnologiyanın meydana gəlməsində dövrü əhəmiyyət kəsb etməsi ilə səciyyələnir. Bir baxımdan təhsil istehsal-bölgü-mübadilə və istehlakında daxil olduğu təkrar istehsal prosesini keyfiyyətcə zənginləşdirir, onun növbəti mərhələ üçün tələblərini artıqlaması ilə ödəyir. İqtisadi nəzəriyyə baxımından bu proses olduqca mürəkkəb hal almasına baxmayaraq dövriyyə yeni tələbatların yaranması ilə nəticələnir.

Təhsilin sosial-iqtisadi mahiyyəti və elmi-nəzəri əsaslarının tədqiqi əsasında belə qənaətə gəlmək olar ki, təhsil cəmiyyətin, dövlətin və

iqtisadiyyatın inkişafında əvəzsiz rola malik olan bir sahədir. Bu sahə kapital və sərmayə qoyuluşu baxımından cəlbedici bir mövqe nümayiş etdirdiyindən iqtisadiyyatda səmərəlilik, yenilikçilik və yüksək texnologiya əldəetməyin ən əsas meyarı hesab olunur. Maliyyə baxımından onun belə bir cəlbedici mövqedə olması şübhəsiz ki, təhsil sistemi daxilində müəyyən struktur fərqliliyinin meydana çıxmasına şərait yatamışdır. Bizim burda nəzərdən keçdiyimiz əsas cəhətlər ümumən təhsili əhatə etdiyindən, onu söyləyə bilərik ki, maliyyə və təhsilə xərclərin artan həcmdə çəkilməsi digər bir məsələni aktuallaşdırmışdır. Bu məsələ də ondan ibarətdir ki, iqtisadiyyat, təsərrüfat subyektləri üçün kadr hazırlığını peşəkarcasına qısa müddətdə təhsilin hansı struktur yerinə yetirə bilər sualıdır. Dövlət dəstəkli təhsil qrumları, yoxsa xüsusi mülkiyyətə əsalanan özəl təhsil strukturları?

Bu fəslin "Dünya təcrübəsində təhsil siteminin formalaşması və özəl təhsilin fəaliyyət mexanizminin öyrənilməsi" adlı 2-ci yarım bölməsində qeyd olunur ki, təhsil sistemi elə bir sistemdir ki, o daima yeniləşməyə, bilik toplamaq prosesində innovativ mexanizmlərə əsalanmalı və inkişaf etməlidir. Çünki, cəmiyyətin və iqtisadiyyatın tələbləri qarşısında operativlik, məhsuldarlıq və səmərəlilik göstəriciləri təmin edilməlidir. Bu baxımından hesab olunur ki, təhsil sistemi, xüsusən də özəl təhsil sisteminin kadr hazırlanmasındakı rolu beynəlxalq təcrübələr əsnasında öyrənilməsi tədqiqatımızda əməli və nəzəri nəticələr əldə etməyimizə yardımçı olacaqdır.

Yalnız 1999-cu ildə "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat proqramı" təsdiq olunduğundan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatlar məqsədə uyğun şəkildə aparılmağa başlayıb. Həmin proqrama müvafiq olaraq digər pillələrdə olduğu kimi, ali təhsildə də struktur dəyişiklikləri aparılmış, müəssisələrin şəbəkəsi optimallaşmış və mütəxəssis hazırlığı üzrə yeni ixtisaslar əlavə olunmuşdur. Göründüyü kimi belə demək mümkündürsə təhsil sistemi üzrə aparılmış islahatları beynəlxalq təcrübələr dayanaraq effekt verməsi yalnız 1999-cu ildə başlayaraq olmuşdur.

Qeyd etdiyimiz kimi müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin öıkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil siteminin ən zəruri vazifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər

inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil siteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. Bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi əhəmiyyətli dərəcədə yüksək olub təxminən 70 faiz təşkil edir.

2009-2013-cü illər Azərbaycan Respublikasının ali təhsil sitemində islahatlar üzrə Dövlət proqramının əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Balonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yarana tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yardılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil siteminin formalaşdırılmasıdır.

Azərbaycan Bolniya prosesinə qoşulması ali təhsil siteminin ilkin pillərində ixtisasların dəqiqləşdirilməsi, eyni zamanda həmin təsnifata uyğun respublikadakı hazırlığının həyata keçirilmədiyi sahələrin və ixtisasların yenidən işlənməsi zərurəti nəzərdən keçirilmişdir.

Ümumiyyətlə, boloniya prosesi "Avropa Ali Təhsil Bloku" və ya qısaca "EHEA" olaraq ifadə edilən, təhsil və təhsildə ölkələr arası inteqrasiya olunma proyekti 1998-ci ilədən bu günə qədər gəlib çıxmış və tamamlanmış bir planı özündə əhatə edir. Xüsusən də:

- Sarbon Bəyannaməsi (1998,may Paris);
- Boloniya Bəyannaməsi (1999, İyun Boloniya);
- Praqa Yığıncağı (2001, may Praqa);
- Belin Yığıncağı (2003, sentyabr Berlin);
- Bergen Yığıncağı(2005,may Bergen) (13,sş.134) birləşdirir.

Ali təhsil müəsisələrində sahibkarlıq üzrə kadrların artırılması (Almaniyada), mühəndis və alimlər üçün elm həcmli müəssisələrin problemləri üzrə təhsil kurslarını təşkili (İngiltərə), rəhbər işçilər üçün innovasiya siyasəti və innovasiya menecementi üzrə xüsusi kursların (Portuqaliya), tələblər, menecerlər və kiçik müəssisələrin sahibkarları üçün treninqlərin (Belçika) təşkili ilə müşahidə olunur. Onu da vurğulayaq ki, proses olaraq beynəlxalq təcrübənin öyrənilməsində əldə olunan biliklərin istehsalata ötürülməsi kadr hazırlığı ilə paralel formada həyata keçirilməlidir.

Belə ki, son illərdə müəllimlərin peşəkarlığının artırılması, əlavə təhsil sistemində dünya təcrübəsinə uyğun olaraq keyfiyyət

dəyişikliklərinin aparılması istiqamətində müəyyən tədbirlər həyata keçirilib. Bu prosesdə Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar, o cümlədən Britaniya Şurası, YUNİSEF və digər qurumlarla əməkdaşlıq ümumi işə xeyli fayda verib, 12 min müəllim müasir təlim strategiyaları əsasında təşkil olunan treninqlərdən, öyrədici təlim kurslarından keçirilib, eyni zamanda 950 nəfər xüsusi kurslar vasitəsilə <Məşqçi müəllim> kimi hazırlanıb. Göründüyü kimi əmək bazarının əsas subyektlərindən hesab olunan müəllim kontingenti üzr kadr hazırlığı beynəlxalq təcrübədən yararlanaraq həyata keçirilməkdədir.

Avropa Birliyi Ölkələrinin təcrübələrinin öyrənilməsi qeyd etdiyimiz kimi olduqca vacibdir. Belə ki, Holandiya və Belçikada ali təhsil müəssisələrini bitirən potensial kadrların peşəkarlıq qabiliyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. Qeyd edək ki, Sokratis Proqramı (Avropa Birliyi Ölkələrinin ümumi təhsil fəaliyyət proqramı olub, demək olar ki, 30 ölkəni özündə birləşdirir. Proqramın əsas məqsədi Avropa Birliyi və ona daxil olmağa namizəd olan ölkələrdə təhsil qrumları ilə iş birliyi qurmaq, inkişaf etdirmək, bilik toplamağın məqsədini aşılamaq, yaşam boyu öyrənməyi aşılamaq, hər kəs üçün təhsilin əl çatan olmasını təkid etmək, fərqli ölkələrin dillərini və mədəniyyətini Avropa tavanı altında birləşdirməkdən ibarətdir.

Bu fəslin "Özəl təhsil sitemində kadr hazırlığının xarakterik xüsusiyyətləri" adlı 3-cü yarım bölməsində qeyd olunur ki, kadrların hazırlanması, seçilməsi və yerləşdirilməsi məsələsi indiki dövrdə daha vacib və aktuallıq kəsb etməyə başlamışdır. Qeyd edək ki, kadrların hazırlanmasının özəl təhsil sistemi üzrə sadəcə deyil, həmçinin kadr hazırlanmasına sistemliliyin təmin edilməsi də vacib məqamlardan hesab olunur. Nəzərə almaq lazmdır ki, özəl təhsil müəssisələri də daxil olmaqla kadr hazırlanması prosesi aşağıdakı kateqoriyalara bölünməklə reallaşır:

- Rəhbər işlərdə, idarəçilk işlərində işləyən, minlərlə, milyonlarla insanlara rəhbərlik edən kadrların hazırlanması.
- Bilavasitə insanlarla və ya kiçik insan qrupları ilə işləyən kadrlar.
- Bilavasitə yaradıcılıqla, elmlə, mədəniyyətlə məşğul olan kadrlar.
- Sənaye, tikinti və digər istehsal sahələrində çalışan, maşınlar, cihazlarla, müasir aparatlarla işləyən kadrlar.
- Kənd təsərrüfatı sahasində işləyən kadrlar və s.

Özəl təhsil siteminin beynəlxalq təcrübələr baxımından kadr hazırlığında tutduğu yeri dəyərləndirdikdə bir sıra xüsusiyyətlərin ön plana çıxdığını gördük. Onları aşağıdakı ardıcıllıqla sıralaya bilərik:

- özəl təhsil sistemi idarəetmə baxımdan digərlərindən daha irəli getdiyini gördük ki, bunun da əsasında mükəmməl idarəetmə sisteminin olmasıdır. Yəni, hətta bir çox hallarda belə təhsillə əlaqəsi olmayan, lakin mükəmməl idarəetmə bacarığına malik olan menecerlər özəl təhsilin idarə olunmasını həyata keçirdirlər ki, nəticədə səmərəlilik yüksək olur;
- səmərəliliyin əldə olunması özəl təhsil sistemində sahibkara yalnız əlavə mənfəət gətirə bilər, lakin onun əldə olunması hələ cəmiyyət miqyasında kadr hazırlığı üzrə gözləmələrin yerinə yetirilməsi demək deyildir;
- özəl təhsil sisteminin maddi-texniki bazası təkmil olduğundan orda tədrisin keyfiyyəti də yüksək olur. Lakin, unutmamamaq lazımdır ki, orada təhsil alan tələbələrin yüksək standartlar səviyyəsində kadr hazırlanması onların istəyindən daha çox xərclənmiş və xərclənən maliyyə vəsaitinin daha da artma ehtimalının olmasındandır. Bunu biz liberal iqtisadiyyata malik olan ABŞ təcrübəsindən gördük;
- qabiliyyətli və istedadlı insanların cəlbi baxımından özəl təhsil sistemi öncül sıralarından birini tutur. Belə ki, maliyyə vəsaitinin ciddi tələblərinə baxmayaraq gələcək kadrlar karyera qurmaqdan ötrü nüfuzlu özəl təhsil müəssisələrinin imkanlarında istifadə etmək istəyir:
- özəl təhsil ocaqlarının beynəlxalq əlaqələri geniş olduğu, xarici dillərin öyrənilməsinin zərurət təşkil etdiyi bir sistem özündə birləşdirdiyindən insanların cəlbi baxımından öncül ola bilirlər;
- kadr hazırlığı baxımından əmək bazararı ilə sıx əlaqəsi olan özəl təhsil ocaqları kadrların yerləşdirilməsi üzrə xüsusi təcrübəyə malikdirlər;
- xüsusən də əsas xarakterik cəhətlərdən biri kimi məhz biznes qrumları, sahibkarlıq strukturları ilə əlaqəli fəaliyyət özəl təhsil ocaqlarına əlavə üstünlüklər verir;
- düzdür, dövlətə məxsus ali təhsil ocaqlarında da rastlanan sifariş proqramları bilavasitə olaraq bünövrəli şəkildə özəl təhsil sitemində genişləndiyindən bu sistemin üstünlüklərindən yararlananların sayını artırmaqdadır;

- özəl təhsil müəssisələrinən xas olan bütün xüsusiyyətər deyə bilərik ki, hər bir ölkənin təhsil strategiyası, inkişaf proqramı və islahatlardan asılı olaraq onlar fərqli aspektlərdə qiymətləndirilir;
- həmçinin, biznes xarakteri ilə tədris prosesini həyata keçirilən kadr potensialına cəlbedici iş təkliflərini verən özəl təhsil sistemi bilavasitə olaraq əlavə mənfəət qazana bilir.

Yuxarıda sadaladıqlarımız xarakterik xüsusiyyətlərə baxmayaraq bir sıra avropa ölkələrinin təcrübəsi sübüt etmişdir ki, (xüsusən də Fransa, İngiltərə) dövlətin bütün hallarda təhsil sisteminə qayğısı və yardımı olmadan ümumi olan məqsədlər reallaşa bilmir. Dövlətin tələbin yalnız cəmiyyətin savadlı nəsil kimi yetişməsi deyil, həmçinin əmək bazarı üçün potensial və tez reallaşa bilən kadrların hazırlanmasıdır.

**"Özəl təhsil sistemində kadr hazırlığı və ondan istifadə sahəsində mövcud vəziyyətin təhlili və qiymətləndirilməsi"** adlı II fəsildə qeyd edilir ki, Azərbaycan təhsil sistemində aparılan islahatlar və onun qiymətləndirilməsi, əmək bazarının peşə bazarınn peşə istiqamətləri üzrə iş qüvvəsinə tələbin mövcud vəziyyətin qiymətləndirilməsi və özəl təhsil sistemində kadr hazırlığının dinamikası göstərilmişdir.

Bu fəslin "Azərbaycan təhsil sistemində aparılan islahatlar və onun qiymətlədirilməsi" adlı yarım bölməsində ölkəmizdə təhsil sistemində islahatların aparılmasını təşkil etmək məqsədilə 1998-ci ildə Dövlət Komissiyası yaradılmış və bu quruma Dünya Bankının vəsaiti hesabına 1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" qəbul olunmuşdur. Proqramda respublikamızda təhsil sisteinin dünya standartların uyğunlaşdırılması, ümumtəhsil məktəbləri üçün dünya standartlarına uyğun proqram və dərsliklərin hazırlanması, ali məktəblərdə struktur və məzmun dəyişikliklərinin edilməsi, ali təhsil müəssisələrində çox ballı qiymətləndirmə sisteminə keçirilməsinə, təhsilin bütün sahələrində əsaslı islahatlar aparılması, respublikanın aparıcı ali məktəblərinə müstəqillik statusunun verilməsi və digər fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Təhsil sahəsində Azərbaycanın Dünya bankı ilə əməkdaşlığı üç layihənin həyata keçirilməsi ilə səciyyələnir: 1)Təhsil islahatı layihəsi (1999-2004); 2) Təhsil Sektorunun İnkişafı Layihəsi (2004-2009); 3) Təhsil sektorunun İnkişafı üzrə ikinci layihə (2009-2014). Bu mərhələrin hər biri öz-özlüyündə müxtəlif tapşırıqların və problemlərin həllini nəzərdə tutaraq investisiya tutumu və maliyyə həcmi ilə də fərqlənmişdir. Belə ki,

birinci layihə 5,5 mln, ikinci layihə 21 mln, üçüncü layihə isə 45,4 mln. ABŞ dolları məbləğində olmuşdur.

Aşağıdakı qrafikdən göründüyü kimi 2000-ci ildə İnsan İnkişaf İndeksi (İİİ) 0,639, 2013-cü ildə isə 0,747 qiymətləndirilmişdir. 2000-ci ildən etibarən Azərbaycanın insan inkişafı indeksi yüksək inkişaf etmiş ölkələr istisna olmaqla digər qrup ölkələr üzrə qeydə alınan orta göstəricilərdən yüksəkdir. Fikrimizcə, bu ölkəmizdə adambaşına düşən ÜDM-in həcmi və onun yüksək artım tempi, 15 yaş və ondan yuxarı əhali qrupunun savadlılıq səviyyəsi ilə izah edilir. “Sovet” təhsil sisteminin yüksək keyfiyyət göstəricilərinə malik olması, bu gündə MDB ölkələrinin dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə edilə bilən göstəricilərlə xarakterizə olunmasına əhəmiyyətli təsir göstərmişdir. Azərbaycan 2000-ci ildə yüksək inkişaf etmiş ölkələrlə əmsal fərqi 0,21 bərabər olduğu halda, növbəti mərhələdə azalaraq 2013-cü ildə 0,143 təşkil etmişdir.

Qrafik 1.

**İnsan İnkişafı İndeksi**




Qeyd: Diaqram müəllif tərəfindən tərtib edilmişdir.

Təhsilin keyfiyyəti təhsilin nəticələrini xarakterizə edən mühüm xüsusiyyətlərin cəmi kimi qəbul edilir. Təhsilin keyfiyyətlərinin müəyyənləşdirilməsində əsas göstərici təhsil alanların təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti müəyyən edən amil hesab olunur. Məlumat üçün bildirək ki, şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi üzrə mövcud olan beynəlxalq proqramlarda, məsələn

TIMSS (Trends in Mathematics and Science Study), PIRLS (Progress in İnternational Reading Literacy Study) və PISA (Programme for İnternational student Assessment) iştirak səviyyəsi ürəkaçan deyil. Azərbaycan 2006-cı ildə iştirak etdiyi PISA üzrə beynəlxalq proqramda 57 ölkə arasında 55-ci yeri tutub. Lakin Azərbaycan inkişaf etmiş ölkələrin fəal iştirak etdiyi iki qiymətləndirmə proqramında – TIMSS və PIRLS-də indiyədək ümumiyyətlə iştirak etməyib.

Orta təhsilin keyfiyyəti ilə bağlı problemlərin mövcudluğu Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının (TQDK) ali məktəblərə qəbulun nəticələrindən də aydın göstərir. TQDK-nın məlumatına görə, 2013-cü ildə ali təhsil müəssisələrinə qəbul olmaq üçün 100.7 min nəfər abituriyent rəsmi ərizə ilə müraciət etmişdir. Buraxılan ildə ali təhsil müəssisələrində 36,5 min qəbul planı elan olunma faizi 92,9% bərabər olmuşdur. Qəbul imtahanlarında iştirak edən abituriyentlərin 65%-i 0-200, 13,8%-i 200-300, 157,7% -i 300-500, 5,6%-i isə 500-700 arasında bal toplamışdırlar.

Azərbaycandan 38 ali məktəb öyrənilmiş, 12 min ali məktəb sırasına Azərbaycandan cəmi 8 ali məktəb düşmüşdür. Onlar aşağıdakı kimi sıralanmışdır: Qafqaz Universiteti (5619-cu yer), Xəzər Universiteti (6198-ci yer), Diplomatiya Akademiyası (8357-ci yer), Bakı Dövlət Universiteti (8807-ci yer), Azərbaycan Dövlət Aqrar Universiteti (11167-ci yer ) və Azərbaycan Dövlət İqtisad universiteti (11690-cı yer). Yüksək liqa hesab olunan ilk 6 min ali məktəb arasına Azərbaycandan, təəssüf ki, yalnız bir ali məktəb daxil ola bilib. Halbuki, bu sırada Ukraynanın -68, Qazaxıstan-17, Belarus -18, Ermənistan-5, Gürcistan-4, Qırğızıstan-4, Türkmənistan və Tacikistan isə heç bir ali məktəblə təmsil olunmamışdır. Azərbaycana yaxın böyük dövlətlərdən Rusiyanın 302, Türkiyənin 86, İranın isə 77 ali məktəbi dünyanın 6 min ən yaxşı ali məktəbi sırasındadır.

Bu fəslin 2.2. "Əmək bazarının peşə istiqamətləri üzrə iş qüvvəsinə tələbin mövcud vəziyyətin qiymətləndirilməsi" adlı yarım bölməsində Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən əmək ehtiyyatlarının sayı 2000-ci ilə müqayisədə 33,6% artmış, 2013-cü ildə 6260.1 min nəfərə çatmışdır. Bu qadınların nisbətən yüksək fertillik səviyyəsi və əhalinin əlverişli yaş strukturu ilə izah edilir. Diaqram 2.1-dən göründüyü kimi 2000-ci ilə müqayisədə iqtisadi fəal əhalinin (İFƏ) sayı 9% artmış, əmək ehtiyyatlarının tərkibində xüsusi çəkisi 2000-ci ildə 93,3%, 2013-cü ildə isə 76% -ə bərabər olmuşdur.

Diaqram 1.

**Əmək ehtiyyatları, iqtisadi fəal və iqtisadi qeyri-fəal əhali**




Qeyd: Diaqram müəllif tərəfindən tərtib edilmişdir.

Diaqramdan göründüyü kimi 2013-cü ildə məşğulların cəmi 16.2%-ni ali, 10,4%-ni orta, 5,3%-ni isə peşə-ixtisas təhsilli mütəxəsislər təşkil etmişdir. Onu da, qeyd edək ki, əmək bazarına daxil olan tam və ya natamam orta məktəb məzunları əmək bazarındakı rəqabətə davam gətirə bilmir və ağır əmək sahələrində ucuz işçi qüvvəsi kimi istismara məruz qalır.

**2013-cü il üzrə əmək bazarı iştirakçılarının təhsil səiyyəsi (min nəfər). Cədvəl 1**

| | Cəmi | Ali | Orta ixtisas | Peşə | Tam orta | Əsas orta | İbtidai |
|---|---|---|---|---|---|---|---|
| **Məşğullar** | 4521,2 | 732,4 | 470,3 | 239,6 | 2776 | 271,3 | 31,6 |
| | 100% | 16,2% | 10,4% | 5,3% | 61,4% | 6% | 0,7% |
| **İşsizlər** | 236,6 | 39,5 | 30,6 | 10,7 | 124,3 | 30,5 | 1 |
| | 100% | 16,7% | 12,9% | 4,4% | 52,5% | 12,9% | 0,4% |

Qeyd: Cədvəl müəllif tərfindən hesablanmış və tərtib edilmişdir.

Aşğıdakı qrafikdən isə göründüyü kimi əmək bazarında əməyin təklifi ona olan tələbi üstələmişdir. Belə ki, 1991-ci ilə nisbətdə rəsmi işsizlərin sayı təqribən 4 dəfə artaraq 2013-cü ildə 36.2 min nəfərə çatmışdır. Məşğulluq Xidməti Orqanlarında qeydiyyata alınan boş iş yerlərinin sayı isə təhlil olunan dövrdə 73.1% azalaraq 13.6 minə bərabər olmuşdur. Hesablamalar göstərir ki, tədqiq olunan illərdə bazarda gərginlik əmsalıda yüksək olmuşdur. 1991-1992-ci illərdə vakant iş yerlərinin sayı iş axtaranların sayından çox olduğu halda, 1993-cü ildən başlayaraq bir boş iş yerinə düşən işsizlərin sayı artmışdır. Belə ki, 1993-cü ildə gərginlik əmsalı 1,8, 2003 –cü ildə 7,2, 2003 –cü ildə isə 2,7-ə bərabər olmuşdur.

**Vakant iş yerləri və rəsmi işsizlərin sayı.**

**Qrafik 2.**




Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilmşdir.

Aşağıdakı cədvəldə isə ölkə üzrə boş iş yerlərinin iqtisadiyyatın sahələri üzrə strukturu verilmişdir. Göründüyü kimi 2010-cu ilə müqayisədə Nəqliyyat və anbar təsərrüfatı, Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, peşə və elmi və texniki fəaliyyət və digər başqa sahələrdə əməyə olan tələbin səviyyəsi azalmışdır. Tələbin ən yüksək artımı isə turistlərin yerləşdirilməsi və ictimai iaşə (4.2 dəfə), Səhiyyə və sosial xidmətlərin göstərilməsi (2.4 dəfə), Sənaye və sənaye (69%) sahələridə müşahidə olunmuşdur.

**Vakant vəzifələrinin tutulması üçün işçi qüvvəsinə olan tələb (ilin sonuna). Cədvəl 2.**

| | 2010 | | 2011 | | 2012 | | 2013 | |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | 10654 | 100% | 14248 | 100% | 15766 | 100% | 13608 | 100% |
| Kənd təsərrüfatı və balıqçılıq | 160 | 1.5% | 378 | 2.7% | 290 | 1.8% | 270 | 2% |
| Sənaye | 2057 | 19.3% | 2770 | 19.4% | 3486 | 22.1% | 2588 | 19% |
| Tikinti | 365 | 3.4% | 784 | 5.5% | 725 | 4.6% | 376 | 2.8% |
| Ticarət; Nəqliyyat vasitələrinin təmiri | 587 | 5.5% | 1517 | 10.6% | 1012 | 6.4% | 611 | 4.5% |
| Nəqliyyat və anbar təsərrüfatı | 404 | 3.8% | 736 | 5.2% | 643 | 4.1% | 264 | 1.9% |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 71 | 0.7% | 314 | 2.2% | 468 | 3% | 297 | 2.2% |
| İnformasiaya və Rabitə | 64 | 0.6% | 110 | 0.8% | 229 | 1.5% | 105 | 0.8% |
| Maliyyə və sığorta fəaliyyəti | 247 | 2..3% | 469 | 3.3% | 534 | 3.4% | 338 | 2.5% |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 32 | 0.3% | 16 | 0.1% | 8 | 0.1% | 27 | 0.2% |
| Peşə, emi və texniki fəaliyyət | 352 | 3.3% | 306 | 2.1% | 302 | 1.9% | 279 | 2.1% |
| Dövlət idarəetməsi və sosial təminat | 207 | 1.9% | 139 | 1% | 269 | 1.7% | 293 | 2. 2% |
| Təhsil | 921 | 8.6% | 1118 | 7.8% | 1320 | 8.4% | 1553 | 11.4% |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1935 | 18.2% | 3595 | 25.2% | 4386 | 27.8% | 4563 | 33.5% |
| Digər sahələr | 3252 | 30.5% | 1996 | 14% | 2094 | 13.3% | 2044 | 15% |

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Bunun üçün iqtisadi inkişafın əsasında həyata keçirilən təhsil siyasəti məşğulluğun strukturu ilə əlaqələndirilməli, peşə-ixtisas mütəxəssislərin hazırlığı, habelə özəl təhsil siteminin inkişafı istiqamətində islahatlar keçirilməlidir.

“Özəl təhsil sistemində kadr hazırlığının dinamikası” adlı 2.3. yarım bölməsində qeyd olunur ki, ali təhsil ümumi orta təhsil, peşə təhsili yaxud orta ixtisas təhsili bazasında qurulur. Ali təhsilin verilməsində başlıca məqsəd əmək bazarının və cəmiyyətin tələbatı nəzərə alınmaqla, iqtisadiyyatın, ictimai-mədəni həyatın müxtəlif sahələri üçün yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı həyata keçirməkdir. Elmi tədqiqat istiqamətlərinin düzgün seçilməsi, doktorantların və gənc alimlərin intelektual potensialının ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilməsi ali məktənlərin başlıca vəzifələrindəndir. Bu mənada ali təhsilin məqsədi konkred fəaliyyət sahələrində əməli bilik və vərdişlərlə yanaşı, həmin sahənin elmi əsaslarının mənimsənilməsini təmin etməkdir.

Ali təhsil müəsisələrində mütəxəssis və kadrların hazırlığı aşağıdakı iki səviyyədə həyata keçirilir:

- Bakalavriat
- Magistratura

Aparılan araşdırmalar göstərir ki, 1995-ci ilə nisbətdə təhsil alan tələbələrin sayı 53.1 % artaraq 2013-cü ildə 151.3 min nəfərə çatmışdır. 1995-ci ildə təhsil alan tələbələrin 12.7%-i, 2013-cü ildə isə 13.1 % -i özəl sektorun payına düşmüşdür. Özəl bölmə üzrə təhsil alan tələbələrin sayı 1995-ci ilə nisbətdə 59% artmış, 2013-cü ildə 19.9 min nəfərə çatmışdır. Cədvəldən göründüyü kimi özəl ali məktəblərin kadr hazırlığında iştirakı aşağıdır.

**Ali məktəblərin və tələbələrin sayı (min nəfər).**

**Cədvəl 3**

| | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Ölkə üzrə tələbələrin sayı | 98812 | 119683 | 129948 | 140241 | 145584 | 151274 | - |
| Özəl bölmə üzrə tələbələrin sayı | 12507 | 28664 | 23951 | 19753 | 19616 | 19900 | 19883 |
| Ölkə üzrə əhalinin hər 10000 nəfərinə tələbələrin sayı | 133 | 147 | 152 | 154 | 155 | 158 | 160 |
| Özəl bolmə üzrə əhalinin hər 10000 nəfərinə tələbələrin sayı | 16 | 35 | 28 | 22 | 22 | 22 | 23 |

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

Aşağıdakı cədvəldə isə 2013-cü il üzrə ali təhsil müəssisələrini bitirən mütəxəssislərin ixtisas qrupları və elmi istiqamətlər üzrə strukturunu verilmişdir. Müqayisə üçün bildirək ki, 2000-ci ildə ölkə üzrə ali təhsil müəssisələrini bitirən mütəxəssislərin sayı 24.5 min nəfər olduğu halda, növbəti mərələdə 38% artaraq 2013-cü ildə 33,8 nəfərə bərabər olmuşdur. Özəl ali təhsil müəssisələrini bitirən tələbələrin sayı isə 2000-ci ilə nisbətdə 0.5% artaraq 2013-cü ildə 4881 nəfər təşkil etmişdir. Qeyd edək ki, özəl təhsil müəssisələrində təhsilini bitirmiş mütəxəssislərin sayında cüzi artım olsa da, özəl bölmənin ölkə üzrə ümumi göstəricidə payında 5.3 faiz bənd azalma olmuşdur. Belə ki, 2000-ci ildə ölkə üzrə təhsili başa vurmuş tələbələrin 19.8 % i, 2013-cü ildə isə 14.5%-i özəl sektorun payına düşmüşdür.

Ölkə üzrə 2013-cü ildə təhsilini bitirmiş mütəxəssislərin 90%-i bakalavr, 10%-i isə magistr təhsil səviyyəsi üzrə ixtisaslaşmışdır. Bu mütəxəssislərin19.7%-i təhsil, 16.3% -i iqtisadiyyat və və idarəetmə, 15.7%-i texniki və texnoloji, 11% humanitar və sosial ixtisaslar qrupunu,10%-i isə ayrı-ayrı elm sahələri üzrə magistr təhsil pilləsini bitirmişdirlər.

2013-cü ildə özəl ali təhsil müəssisəsini bitirən 4881 nəfərin 96.3 %-i bakalavr, 3.7%- i isə magistr pilləsi üzrə təhsilini başa vurmuşdur. Bu mütəxəssislərin 3201%-i iqtisadiyyat və idarəettmə 15.1%-i təhsil,13.7%-i humanitar və sosial ixtisaslar qrupunu, 5.7%-ni isə texniki və texnoloji ixtisaslar qrupunun payına düşmüşdür. 2013-cü il üzrə iqtisadiyyat və idarəetmə ixtisas qrupları üzrə ali təhsil müəssisələrini bitirən mütəxəssislərin 28.5%-i, humanitar və sosial ixtisaslar qrupunu 17.9%-i, təhsil qrupunun isə 11%-i özəl ali təhsil müəssilərinin payına düşmüşdür.

Cəmiyyətin peşə -ixtisas təhsilinə olan tələbatının ödənilməsində orta ixtisas təhsilinin özünəməxsus yeri var. Təhsilin bu pilləsi iktisadiyyatın müxtəlif sahələrinin ixtisaslı kadrlarla təmin olunmasında mühüm rol oynayır. Orta ixtisas təhsili fasiləsiz təhsil sistemini tərkib hissəsi olmaqla bir-biri ilə bağlı iki məsələni-gənclərin müxtəlif peşələrə yiyələnməsini və onların ümumi icbari təhsi almalarını həll edir.

**2013-cü ildə ali təhsil müəssisələrini bitirən mütəxəssislərin sayı (nəfər).**

**Cədvəl 4.**

| | Ölkə üzrə | | Özəl sektor üzrə | | Özəl sektorun ölkə üzrə ümumi göstəricilər-də xüsusi çəkisi |
|---|---|---|---|---|---|
| **Ali Təhsil müəssisələrini birirənlərin sayı** | **33758** | **100%** | **4881** | **100%** | **14.5** |
| **Bakalavr təhsil səviyyəsi üzrə** | **30368** | **90** | **4702** | **96.3** | **15.5** |
| Təhsil ixtisasları qrupu | 6666 | 19.7 | 735 | 15.1 | 11.0 |
| Humanitar və sosial ixtisaslar qrupu | 3728 | 11.0 | 667 | 13.7 | 17.9 |
| Mədəniyyət və incəsənət ixisasları qrupu | 817 | 2.4 | 15 | 0.3 | 1.8 |
| İqtisadiyyat və idarəetmə ixtisasları qrupu | 5502 | 16.3 | 1567 | 32.1 | 28.5 |
| Təbiət ixtisasları qrupu | 1120 | 3.3 | 33 | 0.7 | 2.9 |
| Texniki və texnoloji ixtisaslar qrupu | 5290 | 15.7 | 276 | 5.7 | 5.2 |
| Kənd təsərrüfatı ixtisasları qrupu | 251 | 0.7 | - | - | - |
| Səhiyyə, rifah və xidmət ixtisasları qrpu | 647 | 1.9 | 48 | 1.0 | 7.4 |
| **Magistr təhsil səviyyəsi üzrə** | **3390** | **10** | **179** | **3.7** | **5.3** |
| Təbii elmlər | 526 | 1.6 | 9 | 0.2 | 1.7 |
| Humanitar və sosial | 992 | 2.9 | 59 | 1.2 | 5.9 |
| Maarif | 159 | 0.5 | - | - | - |
| iqtisadiyyat və idarəetmə | 1159 | 3.4 | 108 | 2.2 | 9.3 |
| təbiət –texniki ixtisaslar | 60 | 0.2 | 3 | 0.1 | 5.0 |
| texniki istiqamətlər | 416 | 1.2 | - | - | - |
| Aqrar və balıq təsərrüfaı | 36 | 0.1 | - | - | - |
| ekologiya və təbiətdən istifadə | 42 | 0.1 | - | - | - |

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.

**“Özəl təhsil sistemində hazırlanan kadr potensialından istifadə mexanizmlərinin təklimilləşdirilməsi istiqamətləri” adlı III fəsildə qeyd edilir ki,** özəl təhsilin maliyələşməsi mexanizmi və onun inkişafının təkmilləşdirilməsi istiqamətləri, özəl təhsil sistemində kadr hazırlılğının əmək bazarının tələblərinə uyğun yaxşılaşdırılması yolları ələ alınmışdır.

Bu fəslin 3.1 “Özəl təhsilin maliyyələşdirilməsi mexanizmi və onun inkişafının təkmilləşdirilməsi istiqamətləri” adlı yarım fəslində, özəl təhsil sistemində maliyyələşmə məsələsində nəzər yetirikdə mexanizm olaraq aşağıdakı cəhətlər diqqətə alınmalıdır:

- özəl təhsil sisteminin ölkənin ali təhsilsitemində yeri və rolu;
- özəl təhsil sistemini ölkənin məşğulluq siyasətini reallaşmasında yeri və rolu;
- özəl ali təhsil sistemini kadr hazırlığı prosesində ölkənin ali təhsil sisteminə vermiş və verməli olduğu tövhələr;
- özəl ali təhsilin həm idarəetmə həm də mailyyə vasitələrinin bölüşdürülməsi üzrə irəli getdiyi məqamlar və xüsusiyyətlər;
- özəl ali təhsil sisteminin əmək bazarının subyekti kimi çıxış etmək qabiliyyətinin səviyyəsi;
- özəl ali təhsilin kadr hazırlığında rəqabət qabiliyyəti nümayiş etdirməsi və dövrü olaraq bunu dahada artırması;
- özəl ali təhsilin ölkənin ali iqtisadi inkişafı və vəziyyəti ilə fəaliiyət baxımından ahəngdarlıq təşkil etməsi və böhran tənəzzül dövrlərində davranışı;
- özəl ali təhsil sisteminin beynəlxalq təcrübələrin öyrənilməsi və mənimsənilməsi baxımından kadr hazırlığında digər strukturlarla müqayisədə irəli gedə biləcəyi sferaların müəyyənliyi.

Ümumiyyətlə, təhsilin maliyyələşməsi demək olar ki, bütün təhsil və tədris prosesinin həyata keçirilməsi üçün zəruri olan xərclərin, vəsaitlərin maliyyə resursları vasitəsilə təmin və təşkil edilməsi deməkdir. Qeyd etmək lazmdır ki, özəl təhsilin maliyyələşdirilməsi sadəcə olaraq onları təsis edənlərin bir vəzifəsi vəzifəsi kimi deyil, həmçinin ölkənin ümumilikdə sosial iqtisadi inkişafıda nəzərə alınaraq həyata keçirilməlidir. Nəzərə almaq lazımdır ki, hər bir ölkənin təhsil haqda qəbul etdiyi qanun və digər hüquqi sənədlərdən çıxış edərək özəl təhsilin maliyyələşmə mexanizmi formalaşır və inkişafı üçün şərait yaradılır. Respublikamızda da qəbul edilmiş bu hüquqi sənədin 40-cı

maddəsi hesab edirik ki, maliyyələşmə mexanizminin strukturunu dəqiq təsbit edərək ortaya qoya bilmişdir.

Öncəliklə onu qeyd edək ki, özəl təhsilin maliyyələşməsi müəyyən sistem daxilində həyata keçirilməli və reallaşmalıdır. Mexanizmin işləməsi bu sistemin qoymuş olduğu tələblərə uyğun halda olmalıdır. Ümumi olan müddəaları bu baxımdan aşağıdakı kimi qruplaşdıra bilərik:

✓ Özə təhsilin maliyyələşmə sistemi müasir, dinamik və effektli idarəetməyə dəstək və kadr hazırlığını keyfiyyət baxımından birləşdirmək üçün operativliyi özündə birləşdirməlidir.

✓ Maliyyələşmə sistem olaraq təlim-tərbiyə, tədris, innovativ tədqiqatlar və təhsilə xas olan digər əsas funksiyaların keyfiyyətini ən yüksək formada özündə ehtiva etməlidir.

✓ Maliyyələşmə ölkənin və milli iqtisadiyyatın inkişafını hər bir mərhələsi üçün yüksək iqtisadi təzyiq, iqtisadi yüksəliş və böhranlar zamanı sistemin qarşısında duran vəzifələrinin reallaşması maksimum dərəcədə təmin olunmalı, kadr hazırlığı proqramından kənarlaşmalıdır.

✓ Maliyyələşmə sistemləri daima müasirləşməyə meyilli, əmək bazarının tələblərini özündə birləşdirən dinamikliyə hazır olmalı və işləməlidir.

✓ İqtisadi yüksəlişin əsas hərkətverici qüvvəsi hesab olunan özəl təhsilin maliyyələşməsi səmərəliliyi, yüksək keyfiyyət, davamlı maliyyələşmə prinsiplərinə söykənməli və inkişaf etməlidir.

✓ Sosial-iqtisadi mahiyyət baxımından özəl təhsilin maliyyələşməsi sistemi maksimum dərəcədə şəffaflığa dayanmalı və həyata keçirilməlidir (bu amil özlüyündə bilavasitə olaraq institutsional tərəfləri də birləşdirməklə maliyyələşmə mexanizmi keyfiyyət parametrlərinə görə təmin etmiş olur).

"Özəl təhsil sistemində kadr hazırlığının əmək bazarının tələblərinə uyğun yaxşılaşdırılması yoları" 3.2 yarım fəslində isə kadr hazırlığı prosesi əmək bazarının tələbləri baxımından özəl təhsil üçün nə qədər də ikinci planda görsənsə də bizim tədqiqatlarımız nəticəsində bu fikrin bir o qədər də düzgün olmadığı anlaşılmışdır. Bunun əsaslandırılması, kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması üçün hesab edirik ki, hər bir ölkədə əmək bazarının vəziyyəti dərindən öyrənilməli və tətbiq edilməlidir. Xüsusən də ilkin mərhələdə daxili əmək bazarının xüsusiyyətləri və cəhətləri dərindən, tam olaraq anlaşılmalıdır.

Bu işdə hesab edirik ki, iqtisadi inkişaf strukturları ilə özəl təhsil müəssisələrinin sıx əlaqəsi müsbət nəticələr verə bilər. Bundan başqa hesab edirik ki, kadr hazırlığı prosesi üzrə özəl ali təhsil müəssisələri iqtisadi məsələlər  üzrə elmi araşdırmalar mərkəzləri ilə sıx əlaqədar yaratmalı və xüsusən də AMEA-nın İqtisadiyyat İnsitutunun bu sahədəki elmi hesabatları ilə yaxından tanış olmalıdırlar. Bu cəhət fikrimizcə, perspektiv dövrlər üçün özəl təhsil müəssisələrinin kadr hazırlığı prosesində mövcud və yeni növ ixtisasların tətbiqinə yenidən baxılmasını zəruri edəcəkdir. Belə ki, ümumi olan əhalinin tərkibində təxminən 20 faiz paya malik olan ali təhsilli kadr heyəti olduqca respublikamızın miqyası baxımından aşağı rəqəmdir. Təhsilin kütləvi hal alması, kifayət qədər özəl təhsilin əl çatan olması fonunda kadr hazırlığının real göstəricisinin belə olması hesab edirik ki, ölkənin əmək bazarı vasitəsilə hərəkəti onu da deməyə əsas verir ki, onların da təxminən 20 faizi ali təhsilli olanlar hesab olunur. Demək buradan belə nəticə çıxarmaq lazımdır ki, kadr hazırlığı sadəcə kortəbii, planı reallaşdırmaq naminə deyil, real əmək bazarının tələblərini yerinə yetirmək naminə həyata keçirməlidir.

**Nəticə**

Özəl təhsil sietmi olaraq hesab edirik ki, kadr hazılığı prosesində əmək bazarının tələblərini nəzərə almaq və bu sahədə təkmilləşməyə getmək üçün aşağıdakı ümumi tədbirləri yerinə yetirməlidir.

- Daima əmək bazarındakı yaranmış vəziyyəti təhlil etmək, onun hərəkət dinamikasını diqqətdə saxlamaq və müvafiq ixtisaslar üzrə kadrlara olan təlabatları təsnifləşdirmək.
- Müəssisələrdə və təşkilatlarda işdən ayrılmamaq şərti ilə təmin edilən iş yerində təhsil proqramına daxil olmaq, yuxarıda qeyd etdiyimiz kimi peşə təhsilində fasiləsizliyin təmin edilməsi və bu aspektdə təsərrüfat subyektləri arasında aparılan sorğuya uyğun məsafədən (distant), modul və s. qabaqcıl texnologiyaya əsaslanan tədris prosesini həyata keçirtmək.
- Rəqabət qabiliyyətli kadrların hazırlanması prosesində təkcə tədris deyil, xüsusən də peşə təhsili sistemini təkmilləşdirmək və inkişaf etdirmək (burada diqqət çəkən məqam bundan ibarətdir ki, daha yüksək prioritetli ixtisas qruplarının seçimi məsələlərinin həlli üçün, prioptetlərin özəl təhsil müəssisələri tərəfindən ümumiləşdirməsi peşə-

ixtisas qrupları fonunda qiymətləndirilməsi olduqca vacibdir. Bu zaman peşələrin praktiki təhlil məqsədlərinə istiqamətlənmiş qruplar iki vacib tələbə cavab verməlidir. Bir tərəfdən müfəssəl olmalı, digər tərəfdən isə ayrılmış qrupların təbii biliklərinin daha iri lakin, əmək bazarının kifayət qədər oxşar seqmentləri şəklində birləşməsinə şərait yaratmalıdır. Prioritetlik sırasını, yəni təhlil edilən peşə-ixtisas qruplarının seçilmiş göstəricilər üzrə ardıcıllığını təhsil edilən peşə-ixtisas qruplarının seçilmiş göstəricilər üzrə ardıcıllığını təhsil müəssisələri diqqət mərkəzində saxlamalıdırlar. Bundan başqa əmək bazarının vəziyyətindən asılı olaraq özəl təhsil müəssisələrinin peşə hazırlığı sisteminə cəlb edilməsi və burada maliyyələşməni həyata keçirməsi hər bir ixtisas qrupuna ediləcək üstünlük digər qrupların inkişafı üçün ayrılan resursların həcminə təsir edəcəkdir. Buna görə də müəssisələr əmək bazarında daha çox təlabat olan ixtisas qruplarının seçim problemi, bu sahədəki peşə təlimi sisteminin inkişafı ilə daha da çətin və mürəkkəb xarakter daşımağa başlayacaqdır.

- Özəl təhsil müəssisələrində təhsil sferasında həyata keçirilən struktur-institutsional dəyişikliklərin iş yerlərini təklif edən müəssisələrin işçi qüvvəsinin bacarıq və vərdişlərinə olan təlabatlarına uyğunlaşdırılmasını nəzərdən keçirmək.
- Özəl təhsil müəssisələrində ayrı-ayrı ixtisaslar kimi texniki peşə təhsili üçün beynəlxalq tələblərə cavab verən təhsil proqramlarının-sisteminin hazırlanması və buna uyğun ixtisasların təsnifatının aparılması.
- Bütövlükdə insan potensialının inkişafına yönəlik tədbirlərə qoşulmaq, kadr hazırlığı baxımından irəli gedən tərəfləri özündə birləşdirən özəl təhsil müəssisəsinin nəzdində müəyyən strukturun yaradılması.

Bizim təklifimiz bundan ibarətdir ki, istehsalat müəssisələri ilə qarşılıqlı razılaşma əsasında özəl təhsil müəssisələri tələbə kontingentini müvafiq dövrlərdə həmin müəsisələr təcrübə keçməyə göndərsinlər. Belə bir tədbirin reallaşmasında məqsədlər ardıcıllığı aşağıdakı kimi qruplaşdırmaq olar:

- Təhsil sistemi ilə əmək bazarının tələbləri arasında normal-keyfiyyət uyğunluğu yaratmaq.
- Özəl təhsil müəssisələri ilə istehsalat-xidmət müəssisələri arasında qarşılıqlı fəaliyyətli yaratmaq və inkişaf etdirmək.

- Keyfiyyətli kadr hazırlığı sisteminin özəl təhsil müəssisələrində təkmilləşdirilməsi.

- Müasir dövr üçün ali məktəbləri qurtaran insanlardan iş stajının tələb olunması fonunda təcrübəyə göndərilmiş tələblərin staj haqda sertifaklarla təmin edilməsi.

- Özəl ali təhsil sisteminin daha çox iqtisadiyyatla və onun cəmiyyət miqyasında effektləri ilə tanış olması və real proseslərdə rolunun artması.

- Əmək bazarında mövcud olan tələb və təklif arasındakı tarazlığın təmin olunması və uyğunluğun qorunması.

- Nəticədə cəmiyyət miqyasında özəl ali təhsil sisteminə münasibətin birmənalı müsbət dəyişilməsi.

- Kadr hazırlığı sistemində digər ali təhsil ocaqları ilə özəl təhsil müəssisələrinin rəqabət qabiliyyətinin artırılması.

- Həmçinin, xarici ölkələrə, istehsalat mərkəzlərinə belə təcrübələrə göndərilmə şəbəskəsinin genişləndirilməsi və həmin təhsil müəssisəsinin adının daha geniş spektrdə tanınması və s.

Beynəlxalq təcrübələrə dayanaraq onu qeyd edə bilərik ki, kadr hazırlığı prosesinin təkmil olması və əmək bazarının tələblərinə uyğunlaşdırılması bilavasitə olaraq qeyd etdiyimiz kimi elm sferasında yüksək ixtisaslı kadrların hazırlanmasında keyfiyyətin əldən olunmasından bilavasitə aslıdır. Belə ki, yüksək ixtisaslı elmi kadrların hazırlanması və onlardan səmərəli istifadə intellektual əmək bazarında məşğulluğun tənzimlənməsinə, həmçinin yeni texnika və texnologiyalar, yeni məhsullar hazırlamaqla yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərir və eyni zamanda yüksək ixtisaslı kadrlara tələbi artırır. İnkişaf etmiş və etməkdə olan ölkələrdə elmi tədqiqat və işləmələrlə məşğul olanların sayının artdığı bir şəraitdə respublikamızda onların sayının azalması həm intellektual əmək bazarında, həm də elmi-texniki məhsul bazarında tarazlığın pozulması ilə nəticələnəcəkdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı işlərdə öz əksini tapmışdır:**

1. Abdullah C.T. Özəl təhsil sistemində kadr hazırlığının əsas cəhətləri, Journal of Qafqaz Universty-Economics and Administration. Bakı-2013. S-107-113

2. Abdullah C.T. Özəl təhsil sisteminin formalaşmasında beynəlxalq meyllər. Azərbaycan Milli Elmlər Akdemiyasının

İqtisadiyyat İnstitutunun Xəbərlər Jurnalı-1 2013. Bakı -2013. Səh.279-283

3. Abdullah C.T. Azərbaycanın Sosial–Demokqrafik Problemləri. Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu. Elmi əsərləri 1-2013. Səh 359-363

4. Abdullah C.T. Özəl təhsil sistemində kadr hazırlıının əmək bazarının tələblərnə uyğun yaxşılaşdırılması. Ümummilli Lider Heyder Əliyevin anadan olmasının 90-cı il dönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı. Bakı-2013. S-5-6

5. Abdullah C.T. Роль высшего образования в современных условиях социально- економического развития общества. Журнал "Економика та держава" включено до перелшу наукових фахових видань УкраТни, з питань економ1КИ (постанова президм ВАК Украини В1Д 27 травня 2009 р. 2014 № 7, 8эЬ. 96 - 98

6. Abdullah C.T. Təhsilin maliyyələşdirilməsinin müasir problemləri. Journal Of Qafqaz university. Bakı-2014. S-1-7

7. Abdullah C.T. Özəl təhsil sistemində kadr hazırlığının əmək bazarının tələblərinə uyğun yaxşılaşdırılması yolları. Əmək və sosial problemlər jurnalı. 2016/1

**Абдуллах ДЖ.Т.**

## Подготовка кадров в частных учебных заведениях и направления улучшения их использования

Диссертационная работа посвящена изучению проблемы подготовки кадров в частных учебных заведениях и связанных с ними экономических отношений.

Диссертационная работа состоит из введения, трех глав, восьми параграфов, выводов и списка использованной литературы.

Во введении обоснована актуальность темы, показаны степень изученности проблемы, объект и предмет исследования, научная новизна, теоретико-методологическая база, цели и задачи исследования.

В первой главе - «Изучение научно-теоретических основ подготовки кадров в системе частного обучения» - отмечено социально-экономическое значение образования, показана его научно-теоретическая оценка. Также, в этой главе изучен международный опыт в сфере формирования системы образования и механизма работы частного образования, показаны характерные особенности подготовки кадров в частном секторе.

Во второй главе - «Подготовка кадров в частной системе образования, оценка и анализ существующего положения в области его использования» - дана оценка реформам, проводимым в системе образования Азербайджана, показано существующее состояние спроса на рабочую силу по профессиям на рынке труда и представлена динамика подготовки кадров.

В третьей главе - «Направления совершенствования механизма использования кадрового потенциала, подготовленного в системе частного образования» - показан механизм финансирования частного образования и направления его совершенствования, отмечены пути улучшения подготовки кадров в соответствии с требованиями рынка труда.

По результатам диссертационного исследования показаны научно обоснованные пути решения исследуемых в диссертационной работе проблем.

**Abbdulla J.T.**

## The personnel training in privaty education enterprises and its improvement directions

The article dedicated to personnel training in privaty education enterprises and also studied connected with economic relations.

The dissertation work consists of introduction, three chapter, eight paragraphes, conclusions and list of used literature.

İn the introduction the urgency of this problem, level of problems study goals purposes, object and subject of the study, theoretical and methodological basis information base, scientific novelty and practical significance of the study hove been defined.

In the first chapter "Studying scientific – theoretical bases of personnel training in privaty education system, social-economic importance of education marked, its scientific theoretical estimation also gave. Therefore in this chapter forming education system in world practice and activity mechanism of privaty education was studied, also main peculiarities of personnel training were shoved.

İn the second chapter "Analysis modern condition of personnel training and its estimation in privaty education system realizing". Reforms and its estimation in Azerbaijan education system were given in modern condition demand for man power. On main profession directions in labour market and personnel training dynamic were presented.

İn the third chapter "The directions improving usage by personnel training potential in privaty education system financing mechanism of privaty education system and its improving development directions were shown, ways of improving personnel training for the demand of labour market were marked.

İn the end of dissertation work for salve marked problems main scientific ways were shown as well.

Format: 60x84 $16/^{1}$
Tiraj:100
AMEA-nın mətbəəsində çap olunub

**МЕЖДУНАРОДНЫЙ УЧЕБНЫЙ ЦЕНТР**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**КАВКАЗСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Джантурк Абдуллах Тунджер оглы**

# ПОДГОТОВКА КАДРОВ В ЧАСТНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ И НАПРАВЛЕНИЯ УЛУДШЕНИЯ ЕГО ИСПОЛЬЗОВАНИЯ

**Специальность:** 5311.01- «Организация и управление предприятий»

## АВТОРЕФЕРАТ

Диссертация на соискание ученой степени доктора
филосрфии по экономике

**БАКУ-2017**